Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir

# İsa 5000 adamı doydurur



Müəllif: Edward Hughes

İllüstrasiya edən: Janie Forest

Uyğunlaşdıran: Ruth Klassen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2017 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Bir çox din rəhbərləri (fariseylər) İsa haqqında yalan sözlər danışırdı. Bəziləri hətta Onu öldürmək də istəyirdi. Onlar İsanın həqiqətən də ...



... Allahın Oğlu olduğuna inanmırdılar. Onun Allahın Oğlu olduğunu sübut edən möcüzələr etdiyinə baxmayaraq, onlar Onu qəbul etmirdilər.



Bir gün İsa Qalileya gölünü keçdi. Bəlkə O, həmişə Onun ətrafında toplaşan izdihamdan bir az dincəlmək istəyirdi.



Ancaq izdiham tezliklə Onu tapdı. Onlar İsanın böyük möcüzələr etdiyini bilirdilər. Onlar İsa ilə olmaq istəyirdilər.




İsa şagirdlərini sakit bir dağlıq yerə apardı, orada onları öyrətmək üçün oturdu. Camaat axışıb gəlməkdə davam edirdi. Tezliklə axşam düşdü. Hamı yəqin ki, çox acmışdı.

İsa izdihama baxdı.  O, Filipdən soruşdu: “Bunları yedizdirmək üçün haradan çörək ala bilərik?”  Orada yaxınlıqda yemək dükanı yox idi.





İsa nə etməyə hazırlaşırdı?

Filip İsaya cavab verdi: “Bu izdihamı doyuzdurmaq üçün çoxlu pul lazımdır”. İsa və Onun şagirdlərinin çox pulu yox idi.





Digər şagir, Andrey (Şimon Peterin qardaşı) İsaya dedi: “Burada bir oğlanda beş çörək və iki balaca balıq var…”

"… amma bu qədər adam üçün onlar nədir?"  Hətta oğlan öz naharını İsaya verməyə hazır olsa da, Andrey balaca oğlanın naharının bu qədər adamı necə doyuzduracağını görmürdü.



İsa dedi: “Camaatı otuzdurun”.  Beləliklə, təxminən beş min adam oturdu.  Oh!  BEŞ MİN!  Onlar hətta orada olan qadın və uşaqları hesablamamışdılar.



İsa çörəkləri və balığı götürdü. Balaca oğlan yəqin ki, İsaya etibar edirdi. O, İsanın nə üçün onun naharını götürdüyünü, yaxud İsanın onunla nə edəcəyini bilmirdi.



Ola bilsin ki, o fikirləşirdi: “Əgər mən naharımı verərəmsə, onda yeyə bilmərəm”. Ancaq o, buna baxmayaraq, İsaya verdi.



Sonra İsa dua etdi.  O, Allaha minnətdarlıq etdi. Beş çörək və iki balıq üçün?  Bəli! İsa Allaha “Çox sağ ol” dedi və Ondan yeməyə xeyir-dua verməsini dilədi.



Dua etdikdən sonra İsa çörəkləri və balıqları böldü və onları böyük izdihamla bölüşən şagirdlərə verdi. Camaat bu vaxt İsanın möcüzə etdiyini gördü. Hər bir kəs istədiyi qədər yedi.  Çörəklər və balıqlar hələ də tükənməmişdi.



Hər bir kəs doyduqdan sonra orada hələ də çörək və balıq qalmışdı.  İsa şagirdlərə dedi: “Artıq qalanları toplayın ki, heç biri hədər getməsin”.  Onlar yeyənlərdən artıq qalan beş çörəyin qalıqlarından on iki səbət doldurdular.



Həmin gün İsa balaca oğlanın naharı ilə 5000-dən çox adamı doydurdu. Başqa bir vaxt O, yeddi çörək və bir neçə balıqla 4000 nəfərdən çox adamı doydurdu. Adi insanlar bu əlamətləri görəndə onlar ...



... fariseylər kimi qəzəblənmirdilər. Əksinə, onlar deyirdilər: “Bu, həqiqətən də dünyaya gələcək olan Peyğəmbərdir”.  Onlar İsanın Allahın Müqəddəs Sözündə vəd etdiyi gəlməli olan Xilaskar olduğunu bilirdilər.



# İsa 5000 adamı doydurur

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Yəhya 6

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130


Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan.  Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim.  Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et.  Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!   Yəhya 3:16**